## 700 saylı (DÜZƏLİŞ EDİLMİŞ) "MALİYYƏ HESABATLARI HAQQINDA RƏYİN FORMALAŞDIRILMASI VƏ HESABAT VERİLMƏSİ" BEYNƏLXALQ AUDİT STANDARTINA DAİR ŞƏRH

(15 dekabr 2024-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditinə tətbiq edilir)

700 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlari haqqinda rəyin formalaşdirilması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsində Keyfiyyətə Nəzarət,Audit,Təhlil,digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar toplusunda yerləşdirilmişdir.
( https://audit.gov.az/uploads/Beynelxalq_Audit_2019.pdf , səhifə 928-966 ).
Standarta edilmiş dəyişiklikləri (https://audit.gov.az/uploads/BAS_700.pdf ) səhifəsində əks olunmuşdur.
700 saylı BAS-a son dəyişikliklər 2024-cü ildə İAASB tərəfindən edilmişdir aşağıdakılardan ibarətdir:

**Tələblər**
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)
**Auditor hesabatı**
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)
***Beynəlxalq audit standartlarına uyğun aparılan auditor yoxlamalarına dair auditor hesabatı***
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)
**Rəy üçün əsaslar**

28. Auditor hesabatına bilavasitə "Rəy" bölməsindən sonra "Rəy üçün əsaslar" başlıqlı bölmə daxil edilməlidir. Bu bölmədə (İst: Paraq. A32)

(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

(c) Auditorun auditlə bağlı müvafiq etik normalara uyğun olaraq müəssisədən asılı olmamasına və bu normalara uyğun olaraq auditorun etika ilə bağlı digər məsuliyyətlərini yerinə yetirməsinə dair bəyanat daxil edilir.

(i) Bəyanatda müvafiq etik normaların mənşə yurisdiksiyası müəyyən edilməli, yaxud Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblər üçün beynəlxalq etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)" (IESBA Məcəlləsi) istinad edilməlidir; ~~habelə~~ (İst: Paraq. A34–A35~~9~~, A36–A37)

(ii) Müvafiq etik normalara uyğun olaraq auditordan müəyyən müəssisələrin maliyyə hesabatlarının auditi üçün nəzərdə tutulan müstəqillik tələblərini tətbiq etməsini ictimaiyyətə açıqlamağı tələb edilərsə, bəyanatda qeyd edilməlidir ki, auditor bu cür

müəssisələrin auditinə şamil olunan müstəqillik tələblərinə uyğun olaraq həmin müəssisədən asılı deyil; habelə (İst: Paraq. A35A)

(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

*Qanun və ya qaydalarda nəzərdə tutulmuş auditor hesabatı*

50. Auditor hər hansı bir yurisdiksiyanın qanun və ya qaydalarına uyğun olaraq, auditor hesabatının konkret bir formatından və ya konkret ifadə formasından istifadə etməli olduqda, beynəlxalq audit standartlarına o halda istinad edə bilər ki, auditor hesabatı ən azı aşağıdakı elementləri əhatə etsin: (İst: Paraq. 70-A71)

(a) (Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

(e) Auditorun auditlə bağlı müvafiq etik normalara uyğun olaraq müəssisədən asılı olmaması və bu normalara uyğun olaraq auditorun etika ilə bağlı digər məsuliyyətlərini yerinə yetirməsinə dair bəyanat.

(i) Bəyanatda müvafiq etik normaların mənşə yurisdiksiyası müəyyən edilməli, yaxud IESBA Məcəlləsinə istinad edilməlidir.

(ii) Müvafiq etik normalara uyğun olaraq auditordan müəyyən müəssisələrin maliyyə hesabatlarının auditi üçün nəzərdə tutulan müstəqillik tələblərini tətbiq etməsini ictimaiyyətə açıqlamağı tələb edilərsə, bəyanatda qeyd edilməlidir ki, auditor bu cür müəssisələrin auditinə şamil olunan müstəqillik tələblərinə uyğun olaraq həmin müəssisədən asılı deyil.

(e) (Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

**Praktik tətbiq və digər izahedici materiallar**
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

**Auditor hesabatı** (İst: Paraq. 20)
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)
**Rəy üçün əsaslar (İst: Paraq. 28)**
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)
**Müvafiq etik normalar (İst: Paraq. 28 (c))**

A34. Müvafiq etik normaların yurisdiksiya mənşəyinin müəyyən edilməsi müəyyən audit tapşırığına aid olan həmin normalarına dair şəffaflığı artırır. 200 saylı BAS-da izah olunur ki, müvafiq etik normalar daha məhdudlaşdırıcı olan milli normalarla birlikdə adətən maliyyə hesabatlarının auditi ilə bağlı IESBA Məcəlləsinin müddəalarını təşkil edir.[1] Müvafiq etik normalara IESBA Məcəlləsindəki normalar daxil olduğu halda, hesabatda IESBA Məcəlləsinə də istinad edilə bilər. Auditə aid olan etik normaların hamısını IESBA Məcəlləsi təşkil etdikdə, hesabatda yurisdiksiya mənşəyi göstərilmir.

A35. Bəzi yurisdiksiyalarda müvafiq etik normalar bir neçə müxtəlif mənbələrdə, məsələn, etika məcəlləsində (məcəllələrində), habelə qayda və qanunlar

[1] 200 saylı BAS, A17 paraqrafı

daxilində əlavə qayda və tələblərdə mövcud ola bilər. Müstəqillik və digər müvafiq etik normalar məhdud saylı mənbələrdə olduğu halda auditor öz seçiminə əsasən müvafiq mənbənin (mənbələrin) adını (məs., yurisdiksiyada tətbiq olunan məcəllənin, qayda və ya normativin adını) göstərə bilər, yaxud hamı tərəfindən başa düşülən və həmin mənbələri müvafiq qaydada cəmləşdirən terminə (məs., X yurisdiksiyasındakı özəl müəssisələrin auditinə dair müstəqillik tələbləri) istinad edə bilər.

A35A. Müvafiq etik normalar:

- müvafiq etik normalarda qeyd olunan müəyyən müəssisələrin maliyyə hesabatlarının auditi üçün nəzərdə tutulan müstəqillik tələblərini, məsələn, IESBA Məcəlləsində ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditi üçün müstəqillik tələblərini müəyyən edə bilər. Müvafiq etik normalar, həmçinin, auditordan tələb edə bilər və ya auditora tövsiyə edə bilər ki, müvafiq etik normalarda qeyd olunanlar istisna olmaqla, müəssisələrin maliyyə hesabatlarının auditinə bu cür müstəqillik tələblərinin tətbiq edilməsinin məqsədəuyğun olub-olmamasını müəyyən etsin.
- auditordan müəyyən müəssisələrin maliyyə hesabatlarının auditi üçün nəzərdə tutulan müstəqillik tələblərini tətbiq etməsini ictimaiyyətə açıqlamağı tələb edə bilər. Məsələn, IESBA Məcəlləsi tələb edir ki, şirkət müəssisənin maliyyə hesabatlarının auditini həyata keçirərkən ictimai maraq subyektləri üçün müstəqillik tələblərini tətbiq etdikdə, bu cür açıqlanma nəticəsində gələcək məxfi planlar açıqlandığı hallar istisna olmaqla, şirkət bu faktı ictimaiyyətə açıqlasın.[2]

260 saylı (düzəliş edilmiş) BAS-da auditorun idarəetməyə məsul şəxslərlə əlaqəsinə dair tələblər və təlimatlar müəyyən edilir ki, bu da bu hallar üzrə məlumatverməni əhatə edir.[3]

A36. Qanun və ya qayda, milli audit standartları və ya audit tapşırığının şərtlərinə əsasən auditordan həmçinin hesabatında maliyyə hesabatlarının auditində tətbiq olunan müvafiq etik normaların, o cümlədən müstəqilliyklə aidəlaqəli olanların, mənbələri haqqında daha dəqiq məlumatların təqdim edilməsi tələb oluna bilər.

A37. Maliyyə hesabatlarının auditi ilə bağlı müvafiq etik normaların mənbələrinin sayı çox olduqda auditor hesabatına daxil ediləcək məlumatların müvafiq həcmini müəyyən edən zaman auditor hesabatında digər faydalı məlumatların gizlədilmə riskini şəffaflıq ilə müvazinətləşdirməni nəzərə almaq vacibdir.

## Əlavə

(İst. Para A19)

**Nümunə 1: Ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin maliyyə hesabatlarına dair auditor hesabatı**

2 IESBA Məcəlləsi, R400.20-R400.21 paraqrafları

3 260 saylı (düzəliş edilmiş) BAS, 16A və A29 paraqrafları

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**

…

- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı auditə aid etik normalar və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsidir (beynəlxalq müstəqillik standartları ilə birlikdə)" və auditor hər ikisinə istinad edir. IESBA Məcəlləsi və yurisdiksiyadakı auditə aid etik normalar ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə tətbiq edilən müstəqillik tələblərini əhatə edir. Onların tələblərinə uyğun olaraq həmçinin auditor ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə şamil olunan müstəqillik tələblərinin tətbiq edildiyini ictimaiyyətə açıqlamalıdır.**

(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

**Maliyyə hesabatlarının auditi haqqında hesabat[4]**
(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz [*yurisdiksiyadakı*] ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə aid olan etik normalar və ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə tətbiq edilən Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə)" tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik. ~~və b~~Biz həmçinin digər etik öhdəliklərimizi bu tələblərə və IESBA Məcəlləsinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

…

[4] "Digər hüquqi və normativ tələblər haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.

**Nümunə 2 – Ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarına dair auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

- **~~Auditə dair tətbiq edilən müvafiq etik normaların hamısını Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsi (beynəlxalq müstəqillik standartları ilə birlikdə)" təşkil edir.~~ Auditə tətbiq edilən müvafiq etik normalar yurisdiksiyaya aid olanlardır. Yurisdiksiyadakı auditə aid etik normalar ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə tətbiq edilən müstəqillik tələblərini əhatə edir. Onların tələblərinə uyğun olaraq həmçinin auditor ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə şamil olunan müstəqillik tələblərinin tətbiq edildiyini ictimaiyyətə açıqlamalıdır.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat**[5]

*(Bu hissə əvvəlki redaksiyada olduğu kimi qalmışdır)*

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz ~~Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə)" (IESBA Məcəlləsi)~~ [*yurisdiksiyadakı*] ictimai maraq subyektlərinin maliyyə hesabatlarının auditinə aid olan etik normalar tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi ~~IESBA Məcəlləsinə~~ bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

[5] "Digər hüquqi və normativ tələblər haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.